**“Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nın təsdiq edilməsi haqqında (Çıxarışlar)**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli, 141 nömrəli qərarı ilə təsdiq edilmişdir.

## IX. Taksi minik avtomobilləri ilə sərnişin daşımaları

**9.8.** Taksi minik avtomobilinin salonunda siqaret çəkməyə və pəncərələrin açılmasına yalnız sərnişinin və sürücünün qarşılıqlı razılığı ilə yol verilir.

## X. Sərnişinlərin hüquq və vəzifələri

**10.3.** Sərnişinə aşağıdakılar qadağandır:

**10.3.16.** Sərnişin avtonəqliyyat vasitəsinin salonunda siqaret çəkmək, digər sərnişinlərin geyimlərini və ya sərnişin avtomobil nəqliyyatı vasitəsinin salonunu çirkləndirə bilən paltarda olmaq və ya çirkli əl yükünü aparmaq;

## XII. Sərnişin avtonəqliyyat vasitəsinin işçi heyəti üzvlərinin hüquq və vəzifələri

**12.2.** Səlahiyyətlərinə uyğun olaraq sərnişin avtonəqliyyat vasitəsinin işçi heyəti üzvlərinin vəzifələri aşağıdakılardır:

**12.2.27-1.** Müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda siqaret çəkməmək;